# HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN SƏRGİ FƏALİYYƏTİ

**Şamxal Məmmədov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Muzeyşünaslıq ixtisası üzrə II kurs magistratura tələbəsi
**E-mail:** Samxalmemmedov84@gmail.com



Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliği işində mühüm rol oynayır. Bu gün muzeylərimiz nadir sənət incilərinin və milli sərvətlərin nümayiş etdirildiyi geniş bir şəbəkəyə malik olub respublikamızın bütün bölgələrini əhatə edir.

Ölkəmizdə muzey işi qədim dövrlərdən başlayaraq özünəməxsus yol keçib. Azərbaycan hökmdarlarının saraylarında, məbədlərdə, həmçinin digər tikililərdə mədəniyyət tariximizin ən müxtəlif dövrlərinə aid qiymətli əşyalar və sənət nümunələri mühafizə edilmişdir. Tarixi və bədii əhəmiyyət daşıyan eksponatların mühüm bir qismi sonrakı dövrlərdə əsas etibarilə şəxsi kolleksiyalarda toplanıb. Eyni zamanda, tarixən regionda baş vermiş geosiyasi hadisələr nəticəsində Azərbaycan mədəniyyətinin, elminin, incəsənətinin unikal nümunələri yüksək estetik dəyərə malik əsl sənət möcüzələri kimi dünyanın ən məşhur muzeylərinin daimi eksponatları sırasında yer almışdır.

XIX əsrin ikinci yarısından etibarən Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər öz növbəsində muzey işinin təşkilinə təkan verdi və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlandı. İlk belə muzeylərdən biri görkəmli maarifpərvər yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında təşkil olunmuşdur. Ölkəmizdə bu gün muzey işinin inkişaf etdirilməsi istiqamətində lazımi tədbirlər görülür. Hazırda Azərbaycan Tarixi və Azərbaycan Ədəbiyyatı muzeylərində əsaslı yenidənqurma və təmir-bərpa işləri aparılır. Regionlarımızda muzeylər şəbəkəsinin inkişafında nəzərəçarpan irəliləyiş əldə olunmuşdur. Prezidentimizin "Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında" 18 dekabr 2006-cı il və "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" 19 dekabr 2006-cı il tarixli sərəncamları muzey işinə dövlət qayğısının aydın təzahürüdür.

Azərbaycanda yaradılmış müasir muzeylər sırasına qeyri-adi görüntüsü ilə Heydər Əliyev Mərkəzi də daxildir. Mərkəz böyük bir kompleksdən ibarət olmaqla özündə iri konqres zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları, adminstrativ ofisləri birləşdirir. Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli, 1886 nömrəli Sərəncamı əsasında yaradılıb. Layihəsi 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən hazırlanıb. 101,801 $m^2$ ərazini əhatə edir. Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması istiqamətində sistemli fəaliyyət göstərir.

Binanın tikinti prosesi, dünyanın ən mürəkkəb və maraqlı müasir memarlıq layihələrinə həsr edilən, Discovery Science və Discovery Channel vasitəsiylə yayımlanan məşhur Build It Bigger verilişində işıqlandırılmışdır. Verilişdə Denni Foster qeyd edir ki, "Bu sadəcə mədəniyyət mərkəzi deyil, həm də dünyada öz yerini tutmaq üçün bir vasitədir." 10 may 2012-ci ildə mərkəzin təntənəli açılış mərasimi olmuş və bu hadisə Heydər Əliyevin 89-cu doğum ilinə təsadüf etmişdir. Mərasimə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun xanımı Mehriban Əliyeva da qatılmışlar. [2]

Əvvəl, sərgilərin yaranma tarixinə qısaca nəzər salaq. Tarix boyunca böyük və bahalı sənət əsərləri dini qurumlar və monarxlar tərəfindən istifadəyə verilmiş məbədlər, kilsələr və saraylarda nümayiş etdirilmişdir. Zəngin Roma kolleksionerləri öz kolleksiyalarını məbədlərə bağışlayıblar. Versal sarayında kolleksiyaların nümayişi həyata keçirilən obyektlərə, saraylara



binalar (Bakı Olimpiya Stadionu, Azərbaycan Respublikası Dövlət Neft Fondu) da vardır.

"Azərbaycana xoş gəlmisiniz". Mərkəzin üçüncü mərtəbəsində "Azərbaycana xoş gəlmisiniz" adlı sərgi yerləşir. Burada Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti və təbiətinə aid eksponatlar sərgilənir. [3]

Sərgini ziyarət edənlər Azərbaycanın müxtəlif regionlarında yerləşən təbiət və memarlıq abidələrinin fotolarını görə bilərlər. Möminə Xatun türbəsi, Kiş kilsəsi, Şirvanşahlar saray kompleksi, Yanardağ və sair görməli yerlərlə tanışlıq mümkündür.

"Kukla İncəsənətdə". Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən sərgidə 230 kukla sərgilənir. Bu sənət əsərləri ümumilikdə 400-dən çox eksponatdan ibarət kolleksiya nümunələridir. Sərgidəki kuklalar 16 ölkənin - Azərbaycan, ABŞ, Almaniya, Avstraliya, Belarus, Belçika, Çexiya, Fransa, İsrail, İtaliya, Latviya, Rusiya, Şimali Kipr, İndoneziya, Ukrayna və Yaponiyanın məşhur kuklaçı rəssamlarının əl işləridir. Ekspozisiyada ümumilikdə 60 rəssam-heykəltəraşın əsərləri təqdim edilmişdir .Sərgidə təqdim edilən sənət əsərlərinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. [2]

girişi məhdudlaşdırılmışdı - müvafiq aksesuarları (gümüş ayaqqabı bəzəkləri və qılınc) olmayan şəxslər içəri buraxılmırdı. XVI əsrin ikinci yarısından etibarən Avropada tanınmış monastr məktəblərinin usta və şagirdlərinin, rəssam, sənətçilərin əl işlərindən ibarət sərgilər təşkil olunmağa başlayır. Nümayiş formalarının sistemləşdirilməsi və təşkili XVII əsrə təsadüf edir. 1667-ci ildə Fransa Akademiyası Luvr sarayının Böyük qalereyasında ardıcıl olaraq rəsm və digər sənət nümunələrinin sərgisini keçirir. Sərgilərin inkişafında ilk dəfə 1798-ci ildə Parisdə təşkil olunan milli sənaye sərgilərinin ardıcıllığı mühüm əhəmiyyət kəsb etdi. [6]

Heydər Əliyev Mərkəzində daimi və səyyar sərgilər mövcuddur. İldə bir neçə dəfə həm mərkəzin içərsində sərgi zallarında, həm də mərkəzin həyətində yerli və xarici sənətçilərin sərgiləri təşkil edilir. Daimi sərgilər:

"Azərbaycan inciləri". Mərkəzin birinci mərtəbəsində "Azərbaycan inciləri" adlı sərgi fəaliyyət göstərir. Sərgidə ölkənin tarixi və mədəni irsini əks etdirən unikal eksponatlar nümayiş etdirilir. Burada Azərbaycan tarixinin bütün dövrlərini, həmçinin mədəniyyətinin müxtəlif sahələrini özündə əks etdirən eksponatlar vardır. Sərgidə arxeoloji ekspedisiyalar zamanı Qobustan dövlət tarixi-bədii qoruğundan aşkarlanmış qayaüstü təsvirlər, numizmatika məmulatı, zinət əşyaları, orta əsrlərə aid gil və keramika nümunələri, Tövrat, İncil və Quranın qədim əlyazmalarını görmək mümkündür. Eksponatlar arasında həmçinin müxtəlif regionlara məxsus Azərbaycan milli geyim nümunələri və müxtəlif məktəblərə xas Azərbaycan xalçaları da var. Qədim Azərbaycan musiqi alətləri də sərgilənir ki, ziyarətçilər onlara yaxınlaşmaqla, həm də alətlərin səslənməsini dinləyə bilirlər.

"Mini Azərbaycan". İkinci mərtəbədə yerləşən "Mini Azərbaycan" sərgisində Bakıda və eləcə də Azərbaycanın digər bölgələrində yerləşən və tarixi-memarlıq əhəmiyyətinə malik 45 binanın maketi sərgilənir. Ziyarətçilər həm Azərbaycan, həm də ingilis dilində sərgilənən binaların tarixi və memarlığı haqqında məlumat ala bilirlər. Həmin guşədə orta əsrlərə (Qız qalası, Möminə Xatun türbəsi), XIX əsrə (Bakı vağzalı, Azərbaycan Dövlət Filarmoniyası, İsmailiyyə Sarayı), SSRİ dövrünə (Hökumət Evi, Yaşıl teatr), XXI əsrə (Bakı Kristal Zalı, Alov qüllələri) aid olanlarla yanaşı, tikilməkdə olan

"Klassik Avtomobillər sərgisi" paytaxt sakinləri və qonaqların daim marağına səbəb olur. Qeyd edək ki, bu sərgi Azərbaycan Avtomobil Federasiyası, Almaniyanın "Classic Remise" və Fransanın Milli Avtomobil (Şlumpf kolleksiyası) muzeylərinin birgə əməkdaşlığı çərçivəsində reallaşıb. Ekspozisiyada Almaniya, ABŞ, İtaliya, Fransa, Böyük Britaniya və keçmiş SSRİ istehsalı klassik avtomobillər təqdim olunur. Həmçinin müxtəlif dövrlərə aid yanacaqdoldurma qurğuları, yol nişanları, avtomobillər haqqında nəşrlər, eləcə də arxiv materialları əsasında hazırlanan videoçarxlar nümayiş etdirilir. Sərgi ziyarətçilərə nadir eksponatları görmək, avtomobil sənayesi tarixinə ekskursiya etmək imkanı verir.

"Heydər Əliyev Muzeyi". Heydər Əliyev irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərən Mərkəzin ən cəlbedici və maraq doğuran bölümü Heydər Əliyev Muzeyidir. Dizaynı və burada tətbiq edilən yeni texnologiyalarla fərqlənən muzey Mərkəzin modern üslubu ilə həmahəngdir. Muzey Azərbaycan tarixinin və ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirir. Burada toplanan məlumatlar ziyarətçilərə interaktiv formada çatdırılır. Üç mərtəbədən ibarət muzeydə ümummilli lider Heydər Əliyevə aid maraqlı faktlar, foto və video materiallar, digər unikal eksponatlar təqdim olunur. Muzeyin "Beynəlxalq əlaqələr" bölməsində məlumatlar xüsusi qlobus vasitəsilə çatdırılır. Belə ki, qlobusun üzərində yerləşən hər hansı ölkənin adına toxunduqda, Heydər Əliyevin hakimiyyətdə olduğu dövr ərzində keçirdiyi görüşlər ekranda öz əksini tapır. Muzeydə təqdim olunan Heydər Əliyevin hərbi və mülki geyimləri, iş masası, şəxsi əşyaları, müxtəlif illərdə layiq görüldüyü orden və medallar, dünya ölkələrinin rəhbərləri tərəfindən aldığı hədiyyələr də nümayiş etdirilən eksponatlar siyahısındadır.

Səyyar sərgilər: "Grace Kelly: şahzadə və stil ikonası" Bakıda, Heydər Əliyev Mərkəzində dünyanın məşhur sərgilərindən sayılan və ziyarətçilər tərəfindən böyük maraqla qarşılanan "Grace Kelly: şahzadə və stil ikonası" sərgisinin açılış mərasimi 12 iyun 2015-ci il tarixində baş tutub. Sərginin açılışında Monako knyazı II Albert iştirak edib. Sərgi tanınmış Hollivud aktrisası və Monako şahzadəsi Grace Kelly-nin həyat yoluna həsr olunub. Eksponatlar Grace Kelly-nin kinoaktrisalıq karyerası, eləcə də həyatının Monako knyazı Rainier III ilə evləndikdən sonrakı dövrünü əks etdirir. Sərgidə Grace Kelly-yə məxsus libaslar, zinət əşyaları, məktublar, fotoşəkillər və digər maraqlı eksponatlar nümayiş olunub.

"Azərbaycan mətbəxi fotoları" sərgisində Azərbaycanın mətbəx mədəniyyəti təqdim edilir. Burada Fransada yaşayıb-yaradan tanınmış amerikan fotoqrafı Peter Lippmanın çəkdiyi fotolar yerləşdirilib. Fotolarda Azərbaycan milli mətbəxinə xas olan plov, dolma, küftə-bozbaş, çörək və lavaşla yanaşı, müxtəlif şirniyyatlar (paxlava, şəkərbura), həmçinin ənənəvi armudu stəkanda çay da təsvir edilib.



"Musiqi alətləri: birlik və müxtəliflik" 2019 cu il sentyabrın 17-də Heydər Əliyev Mərkəzində "Musiqi alətləri: birlik və müxtəliflik" sərgisinin açılış mərasimi təşkil edilib.

Mayın 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarət "Tarixin şah əsərləri" adlı sərgi açılıb. Ekspozisiyada 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası və rus fotoqraf Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur. Sərgidə Qacarlar epoxasına aid qədim incəsənət nümunələrinin əksəriyyəti Fətəli şah dövrünə aid dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalarla təqdim edilir. [3]

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, Azərbaycan təsviri incəsənətinə böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş altı əsəri sərgilənir. Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunub. Mirzə Qədim İrəvani tikmə üçün olan trafaret rəsmləri, divar naxışları, zərgərlik məmulatları, lakla çəkilmiş rəsm əsərləri və şüşə rəssamlığı ilə tanınır. XIX əsrin ortalarında İrəvan xanlığının Sərdar sarayının salamat qalmış orijinal əsərlərini, həmin saray kompleksinin məscid və sarayının dekorunda işlədilən plitələri yenidən boyamış şəxs məhz o olub. Sərdar sarayının arxeoloji qalıqları arasında İrəvan xanlığı və müasir Ermənistan ərazisində yaşamış Azərbaycan xalqına məxsus ənənəvi kostyum və əşyalar, eləcə də mebel nümunələri, vazalar və digər gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim olunur.

Ekspozisiyada Heydər Əliyev Fondunun fərqli mənbələrdən topladığı unikal kolleksiya – XVIII-XX əsrlərə aid 200-dək musiqi aləti də var. Bunlar 31 ölkəyə - Azərbaycan, Albaniya, Bolqarıstan, Çin, Dağıstan (Rusiya Federasiyası), Əfqanıstan, Əlcəzair, Gürcüstan, Hindistan, İndoneziya, İraq, İran, Kipr, Qazaxıstan, Qırğızıstan, Liviya, Macarıstan, Makedoniya, Mərakeş, Misir, Monqolustan, Özbəkistan, Pakistan, Rumıniya, Serbiya, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan, Yəmən və Yunanıstana aid musiqi alətləridir.



Heydər Əliyev Mərkəzində Nəsimi – şeir, sənət və mənəviyyat Festivalı çərçivəsində "Live Life" ("Canlı həyat") sərgisi də açılıb. Sərgi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunub. Ekspozisiya Avropanın bir çox böyük şəhərlərində London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət cəlb etmək və incəsənətin bu sahədə böyük rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiyaya Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA-nın təsisçisi və rəhbəri Leyla Əliyeva, Azərbaycanın tanınmış rəssamları Məryəm Ələkbərli, Ayləl Heydərova, Nailə Sultan, Rəhim Çopurov, Timur Özdəmirovun əsərləri daxildir və onlar sərginin təqdim olunduğu bütün şəhərlərdə nümayiş olunub.

"Reza Deghati. "Odun ruhu. Vizual səyahətə dəvət" İyunun 10-da Heydər Əliyev Mərkəzinin parkında məşhur fotoqrafın sərgisi fəaliyyətə başlayıb. Ekspozisiyada Azərbaycanı tərənnüm edən, onu kəşf etməyə imkan verən əsərlər tamaşaçılara təqdim olunub. Reza Deghatinin indiyədək dərc olunmamış fotolarından ibarət bu sərgi vasitəsilə izləyicilərə zəngin diyarın mənzərəsini, mədəniyyətini, tarixini göstərir.

Modernizm və moda Heydər Əliyev Mərkəzində ən çox marağa səbəb olan sərgilərdən biridir. Aleksandr Vasilyev Fondunun təqdimatında 1960-cı illərin geyim və bəzək əşyalarından ibarət "Modernizm və moda" sərgisi də həmin qəbildəndir. Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov deyib ki, 2017-ci il Mərkəz üçün çox önəmli bir ildir. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Heydər Əliyev Mərkəzinin açılışı olub və ziyarətçilərin sayı günbəgün artır. Mərkəzə artıq bir milyondan çox ziyarətçi gəlib. Bu da onu deməyə əsas verir ki, Mərkəzin seçdiyi mövzular, təqdim etdiyi sərgilər həm turistlər, həm də yerli sakinlər tərəfindən yüksək qiymətləndirilir. O, Heydər Əliyev Mərkəzinin fəaliyyətinə və təşkil edilən tədbirlərə göstərilən diqqət və dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya dərin təşəkkürlərini bildirib. [5]

Kolleksioner Aleksandr Vasilyev Bakıya səfərinin böyük xoşbəxtlik olduğunu vurğulayıb: "Mən, ilk növbədə, Heydər Əliyev Mərkəzinə kolleksiyamı nümayiş etdirməyə imkan yaratdığı üçün təşəkkür edirəm. Bu gün biz sizinlə nadir memarlıq nümunəsi olan binadayıq. Böyük memar tərəfindən layihələndirilmiş bina hələ 2014-cü ildə dünyanın ən gözəl binası kimi qəbul edilib. Bu nadir məkanda olmaq, işləmək, sərgi təqdim etmək bizim üçün şərəfdir".

Nüfuzlu qonaq bu kolleksiyanın 40 il ərzində toplandığını söyləyib: "Biz müxtəlif ölkələrə, o cümlədən Avstraliyaya, Yaponiyaya, Çinə, Türkiyəyə, Fransaya, İtaliyaya, İsveçrəyə, Litvaya, Latviyaya, Estoniyaya, Rusiyaya, Cənubi Amerika ölkələrinə və digər ölkələrə bu sərgi ilə bağlı səyahət etmişik. Kurator Kirill Qasilin bu sərginin təşkilinə böyük vaxt sərf edib. Altı aydan sonra sizə daha maraqlı bir sərgi göstərməyi planlaşdırırıq. Bu, hələ ki, sirdir. Sərgidə görəcəkləriniz, ola bilsin ki, sizin gözləntinizi də ötüb keçəcək. "Chanel", "Dior", "Balmain", "Yves Saint Laurent", "Balenciaga", "Nina Ricci", "Cardin", "Couregge", "Laroche", "Cassini", "Valentino" kimi yüksək modanın qəhrəmanlarının müxtəlif, ən yüksək keyfiyyətli modelləri təqdim edilir. Bunlar o dövrün ulduzlarına məxsus idi. Həmçinin sərgidə çoxsaylı aksesuarlar, çantalar, şlyapalar, bijuteriyalar və s. yer alıb. Düşünürəm ki, bunlar sizdə dərin təəssürat oyadacaq. Bu, həm də maarifləndirici sərgidir. Azərbaycanın dizaynerlərini, rəssamlarını, rejissorlarını, aktyorlarını, yazıçılarını, bir sözlə, o illərin ruhuna nüfuz etmək istəyən hər kəsi məlumatlandıracaq. Axı moda həm də tətbiqi sənətin bir hissəsidir. Bu, təkcə kommersiya deyil, həm də yüksək mədəniyyətdir".

Eksponatlar arasında kino ulduzları Meri Pikford, Qloriya Svenson, Lesli Karon və Loren Bekol, prima-balerina Maya Plisetskayanın şəxsi qarderobundan geyimlər də var. Sərgi indiyədək Sidney, İstanbul, Sankt-Peterburq, Moskva, Riqa və Dauqavpilsdə təqdim olunub. Lakin belə böyük həcmdə ilk dəfə Bakıda sərgilənir.

2016-cı ildə Heydər Əliyev Mərkəzinin parkında "I Love Baku" ("Mən Bakını sevirəm") incəsənət kompozisiyası açılıb. Şəhər sakinləri və qonaqlar Mərkəzin parkında "I Love Baku" incəsənət kompozisiyası ilə tanış olub, burada xatirə şəkilləri çəkdiriblər. Heydər Əliyev Mərkəzinin parkı istirahət və əylənmək üçün şəhərin ən gözəl məkanlarından biri sayılır. Paytaxt sakinləri və şəhərimizin qonaqları açıq havada olan sərgilərlə tanış olur, burada dincəlir, gəzintiyə çıxırlar. ❖

**Ədəbiyyat:**

1. Elfira Məlikova "Muzeylərdə elmi tədqiqat işinin təşkili və metodikası". Bakı-2015
2. Heydər Əliyev Mərkəzinin arxiv sənədləri. 2013-2020
3. Heydər Əliyev Mərkəzinin Kataloqları. 2013-2014
4. Heydər Əliyev və mədəni İrs. Bakı 2014
5. Heydaraliyevcenter.az
6. Yeganə Eyvazova. "Muzey Espozisiyası". Bakı-2009

**Резюме**

Шамхал Мамедов

ВЫСТАВОЧНАЯ ДЕЯТЕЛЬНОСТЬ ЦЕНТРА ГЕЙДАРА АЛИЕВА

Центр Гейдара Алиева был создан на основании Распоряжения Президента Азербайджанской Республики Ильхама Алиева от 29 декабря 2006 года приказом № 1886. Центр систематически работает в направлении углубленного изучения философии государственности Гейдара Алиева и азербайджанской идеологии, широкой пропаганды, сохранения истории и языка Азербайджана, культуры, национальных и духовных ценностей. Центр представляет собой центр исследований, международного диалога и культуры, построенный на проспекте Гейдара Алиева в Баку, столице Азербайджана. Центр состоит из большого комплекса и включает в себя большой конгресс-холл, Музей Гейдара Алиева, выставочные залы и административные помещения. Он назван в честь третьего президента Азербайджана, великого лидера Гейдара Алиева. Проект центра был разработан в 2007 году известным архитектором Захой Хадид. Центр считается одним из символов Баку.

**Ключевые слова:** музей, центр, экспозиция, экспонат, коллекция, выставка, экскурсия, гид.

**Summary**

Shamkhal Mammadov

EXHİBİTİON ACTİVİTY OF THE HEYDAR ALİYEV CENTER

The Heydar Aliyev Center was established based on the Order of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated December 29, 2006, No. 1886. The center systematically works in the direction of an in-depth study of Heydar Aliyev's philosophy of statehood and Azerbaijani ideology, wide propaganda, preservation of Azerbaijan's history and language, culture, national and spiritual values. The center is is research, international dialogue, and cultural center built on Heydar Aliyev Avenue in Baku, the capital of Azerbaijan. The center consists of a large complex, and includes a large congress hall, the Heydar Aliyev Museum, exhibition halls and administrative offices. The center is named after the third president of Azerbaijan, great leader Heydar Aliyev. The project of the center was designed in 2007 by famous architect Zaha Hadid. The center is considered one of the symbols of Baku.

**Key words:** museum, center, exposition, exhibit, collection, exhibition, excursion, guide